**UOT: 821.512.161**

# DİVAN ƏDƏBİYYATININ SON TƏMSİLÇİSİ LESKOFÇALI QALİB

**Barat OSMANOVA***

***Açar sözlər:*** *Divan ədəbiyyatı, klassik şeirdə islahatlar, Tanzimat fərmanı, Midhət Paşa*


## *XÜLASƏ*

Leskoflu Qalip XIX əsrdə divan şeiri ənənələrini davam etdirən şairlər arasında ən uğurlu və sonuncu şair hesab olunur.

“ƏncüməniŞüəra” ədəbi dərnəyinin yaradıcısı Qalib klassik poeziya ənənələrini tərk etmədən yeniləşməyin mümkün olmadığını müdafiə edirdi.

Fərman Osmanlı İmperatorluğunun süqutunun əsasını qoyduğu kimi, dövlətin ənənəvi sütunlarından biri olan Divan ədəbiyyatı da klassik ədəbiyyatda Qalibin islahatları ilə ləğv edildi.Həmin islahatlardan sonra Divan poeziyası zəifləməyə başladı.


Klassik Türk ədəbiyyatı adlanan Divan ədəbiyyatı İslam mədəniyyətinin təsiri ilə təşəkkül tapmışdır. Bu ədəbiyyata məxsus şairlər öz şeirlərini divan şəklində topladıqları üçün bu ədəbiyyat “Divan ədəbiyyatı” adlandırılmışdır.

XI əsrdə yaranmağa başlayan bu ədəbiyyat 1860-cı ilə qədər – Tənzimat ədəbiyyatının yaranmasına qədər davam etmişdir. Əsasən poeziyadan ibarət olan “Divan” ədəbiyyatı Osmanlı dövlətinin möhtəşəm illərində usta şairlərin qələmi ilə inkişaf etmiş, XIX əsrin əvvəllərinə qədər mükəmməl səviyyəyə çatmış və bu əsrin ortalarından da başlayaraq zəifləyərək tarixə qarışmışdır. Bu ədəbiyyatın əsas mövzusunu İslam inancı, İslam tarixi, təsəvvüf fəlsəfəsi, Türk tarixi və mədəniyyəti və s. təşkil edirdi. Din və təsəvvüfə aid bir çox fəlsəfi düşüncələri şeirlərində əsas mövzu kimi işləyən Divan şairləri ictimai məsələlərə demək olar ki, heç toxunmamışlar. Şairlərin dili ərəb, fars və türk dilinin qarışığından ibarət olan Osmanlı dilidir. XVI əsrdən sonra Divan şeirinin dili daha da ağırlaşmış, bu şeirlər mövzudan çox üslubu, ifadə tərzi, ahənginə görə qiymətləndirilmişdir. Eyni mövzu bir neçə şair tərəfindən işlənmişdir. Əsasən qəzəl, qəsidə, məsnəvi, müstəzad kimi nəzm formalarından istifadə edilmişdir.

Bu ədəbiyyatın ilk nümunələrini verən Mevlana Cəlaləddin Rumi bütün əsərlərini farsca yazmış və təsəvvüf düşüncələrini dilə gətirmişdir.

Əruz vəzni ilə yazılan Divan ədəbiyyatının ən gözəl örnəkləri XVI əsrdə yaranmışdır. Bu dövrdə Bakı və Füzuli, XVII əsrdə Nabi və Nəfi, Nədim və Şeyx Qalib öz gözəl əsərləri ilə bu ədəbiyyatı zirvəyə qaldırmışlar. Lakin XIX əsrdən sonra Qərb siyasətinin Osmanlı dövlətinə yıxıcı təsiri ilə yanaşı, Qərb ədəbiyyatının da Divan ədəbiyyatına təsiri, onun zəifləməsinə və tədricən öz əhəmiyyətini itirməsinə gətirib çıxardı.

Həmin dövrdə Türkiyədə böyük siyasi dəyişikliklər olmuş, Osmanlı tarixində avropalılaşma, yeni mədəni həyatın qəbulu kimi – mütərəqqi ideyaları təbliğ edən Tənzimat qanunu qəbul edilmişdi. Tənzimatdan sonra Tevfik Fikrət, Mehmet Akif Ersoy, Yahya Kemal kimi şairlər əruz vəznilə şeirlər yazsalar da, bu artıq tamamilə yeni bir ədəbiyyat idi.

XIX əsrdə Divan ədəbiyyatı, yerli mövzu, deyim, atalar sözü və s. kimi milli mədəniyyət ünsürlərini şeirdə işlətməyə başlayaraq, dövrlə ayaqlaşmağa, fərdi yaşantıları dilə gətirməyə, ictimai

* *f.ü.f.d., dosent. AMEA ak. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: barat.osmanva1940@mail.ru*

mövzuları ələ almağa başladı. Bu dövrdə Əndərunlu Vasif, Keçəçizadə İzzət Molla, Yenişehirli Avni, Akif Paşa, Leskofçalı Qalib kimi Divan ədəbiyyatı ənənələrini davam etdirən şairlər vardır.

Lakin XIX əsrdə Divan ədəbiyyatı artıq son günlərini yaşayır və ömrünü bitirmək üzrə idi. Çünki Tənzimat qanunu qəbul edilərkən, təkcə dövlət quruluşu deyil, Osmanlı Dövlətini ayaqda tutan bütün mənəvi dayaqlarını da sarsıtmaq nəzərdə tutulmuşdu. Bunun başında da əsrlər boyu yaranıb təkmilləşən, dövlətin mənəviyyatını, ideologiyasını təşkil edən Divan ədəbiyyatı dururdu. Bu məqsədlə 1861-1862-ci illərdə "Encümen-i Şüara" (Şairlər Məclisi) ədəbi qrupu yaradılaraq, Divan şeirini islah etmək adı altında fəaliyyətə başladı. Bu məclisə başçılıq edən Leskofçalı Qalib və Hersekli Arif Hikmət ətraflarına gənc şairləri toplayaraq onlara Divan ədəbiyyatını islah etmək yollarını öyrətməyə çalışmış və bu yolla Divan şeirini guya canlandırmaq istəmişdilər.

"Encümen-i Şüara" qrupunu yaradanlardan biri olan Leskofçalı Qalib klassik şeir ənənələrindən ayrılmadan yeniləşməyin mümkün olacağı fikrini irəli sürmüşdü. Hersekli Arif və Namık Kemal başda olmaqla bir çox şair bu fikrin mümkün ola biləcəyini qəbul edirdi.

O dövrdə Leskofçalı Qalib, Divan şeiri ənənələrini davam etdirən şairlər arasında ən başarılı və son şair hesab olunurdu.

Leskofçalı Mustafa Qalib Üsküp Valisi İsmail Paşanın oğludur. 1828-ci ildə Leskofçada anadan olmuşdur. 1850-ci ildə İstanbula gəlmiş və dövlət idarələrində işləməyə başlamışdır. 1852-ci ildə Bosniya Valisi Vəliyəddin Paşa Divan katibliyinə təyin olunur. 1854-cü ildə Rus-Krım müharibəsi başlayanda Qalib İstanbula qayıdır. 1856-cı ildə Van valiliyinə təyin olunan İsmail Bəy oğlunu yanına çağıraraq katibliyə işə götürür, eyni zamanda yerli alimlərdən oğlunun ərəb və fars dillərini və ədəbiyyatlarını öyrənməsini təmin edir. Bir müddət sonra İstanbula dönən Qalib, burada Namiq Kamal və İbrahim Haletlə tanış olur. Midhəd Paşa Tuna (Dunay) Vilayətinə Vali təyin olununca Qalib Bəyi Vilayət İdarə Məclisinin baş katibliyinə təyin edir. Və o eyni zamanda "Tuna" qəzetində çalışmağa başlayır. Burada bir müddət qaldıqdan sonra, Haləp vilayətinə təyin olunur, burada da beş-altı ay qaldıqdan sonra İstanbula dönən Qalib 1867-ci ildə otuz doqquz yaşında vəfat edir.

Qalib həyatı boyu gənc osmanlılar, məşrutiyyət tərəfdarları və hakimiyyət düşmənləri ilə dostluq etmiş və bu onun istər şəxsi, istər fikri və istərsə də sənət həyatına dərindən təsir etmişdir. Bu səbəbdən də onda dövlətə qarşı mənfi münasibətlər yaranmışdır. Bəzi tədqiqatçılar bunu Leskofçada kaymakam (məmur) olan İsmail Paşanın əhali ilə pis rəftarı Osmanlı sarayında məlum olduqdan sonra onun Anadolunun Karahisarsahib məntəqəsinə sürgün edilməsi ilə əlaqələndirsələr də, dövlətə qarşı fikirlərin onda Osmanlı İmperiyasında yüksək vəzifələr tutmuş və hətta sədrəzəm olmuş, Tənzimatın qurucusu, yəhudi əsilli Midhet Paşanın himayəsi altında Tuna vilayəti valiliyində işə başladıqdan sonra meydana gəldiyini söyləmək daha doğru olar.

Midhəd Paşa, Sultan Əbdüləziz dövründə islahatları ilə tanınmış, sədrəzəmlik dövründə ölkəni, xarici dövlətlərdən borc alaraq asılı vəziyyətə salmış, xarici siyasətdə Misiri ingilislərə təslim etmiş, ölkəni daxildən zəiflədərək Osmanlı dövlətini məhv etməkdə əsas rolu olan bir adamdır. O, ətrafına özü kimi kimliyini gizlədən dindaşlarını, cavan, qabiliyyətli, tanınmış, yenilik həvəskarı gəncləri toplayaraq, öz "islahat", "yenilik" kimi fikirlərini onlara aşılayaraq, əsas gizli məqsədini səbrlə həyata keçirmişdi. Sultan Əbdüləzizin taxtdan endirilməsini təşkil etmiş, ölkəni Rusiya ilə müharibəyə sürükləmişdir. 1881-ci ildə Sultan Əbdüləzizə sui-qəsd hazırladığına görə edam cəzasına məhkum edilmişdir. Türk mənbələrində qeyd edilməsə də, rus mənbələrinin yazdıqları məlumata görə, ingilislərin işə qarışması ilə Sultan Əbdülhəmid, edam cəzasını ömürlük həbslə əvəz etmişdir. Üç il həbsdə yatdıqdan sonra Səudiyyə Ərəbistanının Taif şəhərində həbsxanada boğularaq öldürülmüşdür.

Tənzimat fərmanını hazırlayan, Osmanlı Dövlətinin yıxılmasında böyük rolu olan həmin məşhur dövlət adamı Midhet Paşanın bu fəaliyyəti, müasir postmodern roman yazarı, Divan ədəbiyyatı araşdırmaçısı və Osmanlı tarixini gözəl bilən, Qalibin də yaradıcılığı ilə tanış olan İskəndər Palanın da diqqətini çəkmiş və o, "Etiraf" romanında Ornio obrazı ilə sanki Midhet Paşanın obrazını canlandırmışdır. Ornio da Midhet Paşa kimi öz xəbis sifətini gizlədərək dövləti avropalılaşdırmaq və müasirləşdirmək adı altında planlaşdırdığı məqsədlərini həyata keçirmək üçün ətrafına yenifikirli, vətə-

ninin gələcəyini düşünən, qabiliyyətli, ancaq naşı gəncləri toplayaraq guya dövlət üçün faydalı insanlar yetişdirirdi.

Belə bir adamın Qalibin də yetişməsində, fikirlərinin formalaşmasında böyük rolu olmuşdur. Midhet Paşanın ətrafında toplanan, onun fikirlərini həyata keçirən və yaymağa çalışan gənclərdən biri olan Qalib də öz növbəsində dövrünün fəal, məşhur, yeniliksevər gənclərini ətrafına toplayaraq Midhet Paşanın fikirlərini onlara təbliğ edirdi.

Yalnız Namiq Kemalla dostluğunu qeyd etmək, Namiq Kemalın yetişməsində, fikirlərinin formalaşmasındakı rolunu göstərmək, onun haqqında təsəvvür yaratmağa imkan verir.

Namık Kemal da öz növbəsində Leskofçalı Qalibdən yalnız Divan ədəbiyyatının xüsusiyyətlərini deyil, vətənpərvərlik, vətən sevgisi, azadlıq ideyalarını mənimsəmişdir. Divan şeirində olmayan bu ideyaların şeirə gətirilməsi, divan şeirinin öz kökündən ayrılaraq getdikcə zəifləməsinə, bu yolla Osmanlı dövlətinin də mənəvi gücündən məhrum olmasına səbəb olmuşdur.

Araşdırmaçı alim İsmail Həbib Leskofçalı Qalibin yaradıcılığını qiymətləndirərək "Şübhəsiz ki, Qalibdən əvvəl milləti belə vəcd ilə, yeni bir cəsarət hissi ilə, belə daxili bir həssaslıqla tərənnüm edən şair görünməmişdir (2, s. 363) deyərkən, onda bu cəsarətin haradan gəldiyini ağlından belə keçirməmişdir.

Məlumdur ki, ədəbiyyat, hər zaman, dövrünün siyasi vəziyyəti ilə bağlı olmuşdur.

Bu baxımdan Tənzimat ədəbiyyatı daha çox diqqəti cəlb edir. Əslində, bu ədəbiyyata dövrünün siyasi hadisələri aspektindən yanaşmaq lazımdır. Tənzimat yalnız siyasi bir dəyişiklik yaratmaq məsələsi deyildi. O həmçinin 600 illik möhtəşəm bir dövlətin təməlini sarsıdıb, yox etmək cəhdi idi. Bu təməllərdən ən güclülərindən biri də, heç şübhəsiz, dövlətin fikir dünyasını, fəlsəfəsini, inamını, inancını, mənəvi kimliyini yaradan divan ədəbiyyatı idi və Qalib də bu yolda öz məqsədinə doğru inamla, sezdirmədən irəliləmişdir.

Namık Kemal uzun müddət Qalibin təsirindən qurtula bilməmiş və hətta siyasi sirlərini belə ona açmış və ondan məsləhətlər almışdır.Leskofçalı Qalibin yaratdığı "Encümen-i Şüara" məclisində Namık Kemalla birlikdə sonralar şeirin yeniləşməsində əməyi olan şairlərin demək olar ki, əksəriyyəti iştirak etmişlər. Bu şairlər Qalibin təsirilə klassik şeirdə səthi, zəif, qayə və fikirdən məhrum şeirlərin yer almasının əleyhinə çıxaraq klassik divan şeiri tərzində ancaq dövrün siyasi vəziyyətini əks etdirən, yeni ideyalarla səsləşən şeirlər yazmağa çalışırdılar.

Leskofçalı Qalib divan şeirini islah etməyə çalışarkən divan şeiri formasında yeni ifadələrdən istifadə edirdi. Qalibin şeirlərindəki bu uyumsuzluqlar, sonrakı yeni axtarışların, şeirin tamamilə yeniləşməsinin ilk rüşeymləri oldu.

Qalib divan şeirinin bir forması olan nəzirələrdən, klassik şeiri tənqid etmək məqsədilə istifadə etmişdir. XVII əsrdən sonra təqlid və söz oyununa çevrilmiş nəzirəçiliyi Qalib şeiri saflaşdırmaq və yeniləşdirmək vasitəsinə çevirərkən klassik şeirə həmçinin ictimai və siyasi mövzularda daxil etdi:

*Şişe-i alemde insafü mürüvvet kalmamış*
*İnhiraf etmiş tabiat, istikamet kalmamış* (3, s. 13).

deyərkən, onun şeirlərində cəmiyyətin düzəninin pozulması, ədalətin olmaması, vətənin matəm içində olması, bu vəziyyətə bir çarə olmaması kimi, divan şeirlərində olmayan siyasi fikirlərin əks olunmasına rast gəlirik:

"Leskofçalı Qalip Bey ile eski şiir garip bir şekilde, kendisini yaşanan hayattan gelen hemen her şeye kapar" (3, s. 25).

Qalib mövzusu eşq, Allah sevgisi, din, iman və insan olan divan şeirini islah etmək adı altında siyasi məqsədinə doğru yönəlmişdir. Bu da təbiidir. Çünki o dövrdə divan şeiri ən çox oxunan, cavanlara da, yaşlılara da müraciət edən ən aktiv təbliğat vasitəsi idi.

Qalib bəzi araşdırmaçıların yazdığı kimi heç də təsəvvüf şairi deyildir. Onun dini haqqında dəqiq bir məlumat yoxdur. Bəzi tənqidçilər onun Nəqşibəndi təriqətinə mənsub olduğunu söyləyir-

lər. Lakin onun şeirlərində şiəlik təriqətinə meyl olduğunu söyləyənlər də vardır. Ancaq bir-birindən fərqli bu iki inanc və fikrin Qalibdə necə birlikdə işləndiyini anlamaq çətindir. Əslində, bu inancların onun şeirində əks olunması bu mövzuların Divan şeirinin əsas qayəsi olmasından irəli gəlir. Bununla belə onun şeirlərində Allaha bağlılıq, ilahi eşq arama, həsrət, ümid və s. İslamın müqəddəs təfəkkür və ehkamları, Allaha iman, dinin əsas atributları kimi işlənməməklə yanaşı, biganə, təcrid (dərviş), rəncidə (incimiş), istiğna(qənaət), hayf (haqsızlıq), muztarip (iztirab) kimi müsəlman dininin ictimai anlayışları, onlara uyğun olmayan kəlmələrlə ifadə edilir.

İskəndər Pala da onun yaradıcılığında bir şeylər sezmiş ki, "onun tasavvufla ilgisinin bir az da şiir diline yansıtmak isteği çarpıcı söyleyişlerin zorlamasıyla ortaya çıktığı söylenebilir. Büyük mutasavvıf şairlerin ruh çırpınışları, ümit ve hasretleri onda görülmez" (Bax: 4).

Araşdırmaçı Sabri Ülgener isə "Bir estetik ve fonetik unsurlar bütünü olan klassik şiirimizin, devlerden sonra Türk Qalibin alelade, hətta bayağı nazmına doğru yürüyüşü, Doğulu yapısından uzaqlaşma değil de nedir?" (Bax: 3) sualı ilə Qalibin Divan şeirinin islahatına çalışmasının əsl məqsədini bəlkə də sezdiyini göstərmək istəmiş, lakin söyləmək istəməmişdir.

Şair dünyanın ilahi gözəlliyinin Hz. Musa ilə əlaqəsini bir çox şeirlərində qeyd edir.

Qalib ən möhtəşəm "təcəlli" (aydınlanma) anını, Musanın təcəllisi hesab edir. 45 şeirdən ibarət olan "Divan"da bu hadisəyə birbaşa və ya dolayı yollarla dəfələrcə işarələr verilir: tecelli, Tur, Musa, kelim, berk, len terani, zuhur kimi kəlmələrdən, bu hadisəni anlatmaq üçün istifadə edilmişdir. Divanda Musa ilə əlaqəli Tur dağından 10 dəfə, Hz. Musadan 8 dəfə, İsadan 12 dəfə bəhs edildiyi halda Məhəmməd peyğəmbərin və Hz. Əlinin hər birinin adı 2 dəfə çəkilir.

Bundan sonra Qalibin kimliyini və divan ədəbiyyatında islahatlar aparmaq məqsədini qiymətləndirməyi oxucuların ixtiyarına vermək olar.

*Ya Rab, beni nutk ile Musaya kemal et*
*Mecmuamı ser-nusha-i caz-i hayal et*
*Mazmun-i hat-ı yar ile ver şiirimi revnak*
*Her beytimi bir Tur-i tecella-yi cemal et (1, s. 45)*

Bununla belə Qalibin divan şairinin dilinin sadələşməsində xidmətləri olduğunu da söyləmədən keçə bilmirik. Işlədilməməsinin gərəkliyini düşündüyü kəlmələri şeirlərində işlətməmişdir.

Yaşadığı 39 illik qısa ömründə Qalib iki divan tərtib etmişdir. İlk divanı gənclik illərində, atası İsmail Paşanın yanında, Divan katibliyində çalışdığı dövrdə Vanda, evlərində çıxan yanğında yanmışdır. Şair bunu bir şeirində belə yazmışdır:

*Ciğerim canu dilim cizm-i nizarım yandı*
*Yüreğim eşk-i terim dide-i zarım yandı*
*Tutuşup ah-ı şerer-bar ile darım yandı*
*Eserim kalmadı, hep ateşe varım yandı*
*Nice ah eylemeyim, ah yanıktır ciğerim (1, s. 156).*

Bundan sonra Qalib ikinci divanını hazırlayır və onu çap etdirmək üçün Namiq Kemala verir. Namiq Kemal Maqosaya sürgünə göndərilərkən bu divanı da özü ilə götürür. Zeynalabdin Reşid Bəy nəşr etmək üçün bu əsəri Namiq Kemaldan istəyir. O da əsərə bir müqəddimə yazaraq, ona göndərir. Əldən-ələ keçən bu "Divan", nəhayət, birinci "Divan"ın yanmasından keçən 10 il müddətində yazılmış şeirlər də toplanaraq, "Divançe-i Galip" adı ilə 1335 (1929)-cu ildə İstanbulda "Matbaa-i Amire"də 158 səhifə olaraq çap edilir.

## ƏDƏBİYYAT

1. Divan. 1335 (1929). İstanbul, "Matbaa-i Amire", 158 səh.
2. İsmail Habip. Türk Teceddüt Edebiyatı Tarihi. 1925, İstanbul, "Matbaa-i Amire", 363 səh.
3. Metin Kayahan Özgül. Leskofçalı Qalip. Türk Büyükleri Dizisi: 58. Kültür ve Turizm Bakanlığı Yayınları. Ankara, 1987, 172 səh.
4. TDV. İslam Ansiklopedisi.

## *РЕЗЮМЕ*

***Барат ОСМАНОВА***

***Последний представитель диванской литературы – Лескофчали Калиб***

***Ключевые слова:*** *Диванная литература, реформы в классической поэзии, декрет Танзимата, Мидхат-Паша*

Галипф Лескоф считается самым успешным и последним поэтом среди поэтов, продолжавших традиции диванной поэзии в XIX веке.

Галиб, основатель литературной группы «ЭнкуманиШуара», утверждал, что невозможно возобновить, не выходя из традиций классической поэзии.

Подобно тому, как указ заложил основу для распада Османской империи, литература Дивана, одна из традиционных опор государства, была упразднена реформами Галиба в классической литературе. ПослеэтихреформпоэзияДивананачалаослабевать.

## *SUMMARY*

***Barat OSMANOVA***

***The Last Representative of Divan Literature Leskofçali Galip***

***Keywords:*** *Divan literature, classical poetry reforms, Imperial Edict of Reorganization, Midhat Pasha*

Galipfrom Leskof is considered to be the most successful and the last poet among the poets who continued the traditions of Divan poetry in the XIX century.

Galib, the founder of the literary group 'Anjumani Shuara' (Poets council), argued that it is impossble to renew without leaving the traditions of classical poetry.

Just as the decree laid the foundations for the collapse of the Ottoman Empire, so did Divan's literature, one of the traditional pillars of the state, be abolished by Galib's reforms in classical literature. After those reforms, Divan poetry began to weaken.